***Məlum olduğu kimi işğaldan azad edilmiş ərazilərdə bərpa – quruculuq işləri sürətlə aparılır. Bu yerlərdə infrastruktur layihələri həyata keçirilir, yeni elektrik stansiyaları yaradılır, hava limanları inşa edilir, ən əsası ərazilər minalardan təmizlənir. Artıq “ağıllı kənd”, “ağıllı şəhər” layihələri üzrə işlərə rəvac verilmişdir. İlk “ağıllı kənd” layihəsi Zəngilan rayonunun Ağalı kəndində reallaşmaq üzrədir.***



# Növbəti “ağıllı kənd” Füzulinin Dövlətyarlı kəndi olacaq

Prezident İlham Əliyev 2022-ci ilin birinci yarısının yekunları ilə bağlı müşavirədə bu layihə barədə demişdir: “Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq... Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik”.

Birinci “ağıllı kənd” pilot layihəsinin icrası, əsasən, 5 komponent üzrə aparılıb. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələridir. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi ev tikilmişdir.

Dövlət başçımız ötən ilin aprelində təməli qoyulan Ağalı “ağıllı kənd” in təməlqoyma mərasimində demişdir: “Ağalı kəndinin təməl daşının qoyulması “Böyük Qayıdış”ın birinci addımıdır. Burada tətbiq olunan texnologiyaların bir çoxu Azərbaycanda yoxdur. Bu, birinci layihədir, pilot layihədir. İndi artıq evlər tikilmiş, kommunikasiyalar quraşdırılmış, burada yaşayacaq insanların hər birinin işlə təmin edilməsi üçün tədbirlər görülməkdədir”.

“ağıllı kənd” dəki yaşayış evlərində insanın rahatlığını təmin etməkdən ötrü telefon rabitəsindən, internetdən, Wi-Fi-dan tutmuş evlərin mərkəzləşdirilmiş qaydada isidilməsinə, gecə-gündüz su, qaz, elektrik enerjisi təminatınadək hər şey yaradılıb. Mənzillər, otaqlar, işıqlandırma – bütün bunlar əla memarlıq həllində və yüksək zövqlü dizaynda təqdim edilib. Hamar yollar, gecə işıqlandırmaları, rahat nəqliyyat vasitələri sakinlərin istifadəsinə veriləcək. Bütün bunlar göz oxşayan, füsünkar təbiət mənzərələri ilə ideal uyğunluq təşkil edəcək.

Qarabağda birinci layihənin icrasında Türkiyə şirkətinin iştirakı məmnunluq doğurur. Bu pilot layihənin icrasında “Huayvei-Azərbaycan” şirkəti də iştirak edir.

Dövlət başçımız deyib: “Mən şadam ki, Azərbaycanın yaxşı tərəfdaşı olan “Huayvei” şirkəti bu layihədə iştirak edir”. “Huayvei-Azərbaycan” şirkətinin baş meneceri bildirib ki, şirkətin “ağıllı kənd” rəqəmsal texnologiyasından Qarabağda yenidən qurulacaq ərazilərdə istifadə ediləcək. O deyib: “Dünya üzrə aparıcı İKT texnologiyaları şirkəti olaraq biz bütün ən son qabaqcıl texnologiyalarımızı Qarabağda təqdim etməyə və gələcəkdə “ağıllı kənd”lərin inkişafında iştirak etməyə hazırıq. Aparıcı “ağıllı şəhər” və “ağıllı kənd” texnologiyalarının təchizatçısı kimi şirkətimizin bu sahədə böyük təcrübəsi var və bizim 100-dən çox qlobal layihəmiz mövcuddur. Qarabağda “ağıllı kənd” üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün biz ən son məhsul və texnologiyaları təchiz edəcəyik”.

Qeyd edək ki, İtaliya şirkətinin biznes ideyası strateji regionda tam avadanlıqla təchiz edilmiş camış sağmalçılıq fermasının və ya yüksək keyfiyyətli “Motsarella”, “Burrata” və digər növ camış pendirlərinin istehsalının həyata keçirilməsi ilə bağlıdır. Layihə menecerinin sözlərinə görə, südçülük ferması qurulandan sonra tam təlim kursu keçiləcək. Bu təlim sayəsində Azərbaycanda birinci nəsil bacarıqlı pendir hazırlayanlar yetişdiriləcək. Şirkətin hədəfi yüksək keyfiyyətli südçülük sektorunun yaradılmasından ibarətdir ki, Azərbaycan da İtaliya kimi mükəmməl “Motsarella di buffalo” pendirlərinin istehsalçısı olsun.

Ötən il Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərimizdə, hazırda innovativ vasitələrlə idarə olunan “ağıllı yaşayış məntəqələri” üç onillik ərzində qaçqınlıq, məcburi köçkünlük taleyi yaşayan insanlarımızın rahatlığına xidmət edəcək. Bərpa işlərində Azərbaycanın yanaşmasını diqqətə çatdıran Prezident İlham Əliyev deyib: “Mən işğaldan azad olunmuş bütün əraziləri yaşıl enerji zonası elan etmişəm. Biz bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə edəcəyik. “Ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları tətbiq olunacaqdır”.

Cənab Prezident onu da deyib ki, Zəngilanda ilk “ağıllı kənd”in inşası tamamlanmaq üzrədir, növbəti “ağıllı kənd”in ünvanı isə Füzulidədir.Rayonun Dövlətyarlı kəndinin inkişaf konsepsiyası təsdiq edildi, təməli qoyuldu. “Ağıllı kənd” konsepsiyası əsasında Dövlətyarlı kəndində böyük yaşayış məntəqəsi yaradılacaq. Beş kəndi birləşdirən bu layihə, ümid edirəm ki, gələn ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450, ondan sonra əlavə 300 evin tikintisi nəzərdə tutulur və bu, Füzuli rayonunda birinci yaradılacaq yaşayış mərkəzi olacaqdır.

Sonda onu da qeyd etmək yerinə düşər ki, güclü dövlət olan Azərbaycan işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı layihələrin maliyyə təminatı üçün heç bir xarici dövlətdən və beynəlxalq təşkilatdan kömək istəmir. Bütün bərpa işləri sırf daxili imkanlar hesabına həyata keçirilir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***